DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!

AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!

# Abşeron rayonun Masazır kəndində seçicilərlə görüş keçirilib







Yeni Azərbaycan Partiyasının (YAP) 45 saylı Abşeron seçki dairəsindən deputatlığa namizədi Oqtay Əsədovun vəkillərinin və səlahiyyətli nümayəndələrinin seçicilərlə növbəti görüşü keçirilib. Masazır kəndində keçirilən görüşdə çıxış edən YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev bildirib ki, Azərbaycanın əldə etdiyi inkişaf ölkəmizin regionun lider dövlətinə çevrilməsinə şərait yaradıb. O qeyd edib ki, YAP hər zaman Milli Məclisdə sosial-iqtisadi inkişafımızı özündə ehtiva edən, eləcə də insan hüquqlarının qorunması, sosial təminatın yüksəldilməsi yönümündə qanun layihələrinin hazırlanmasında aktiv rol oynayır. Görüşdə seçicilərin bu seçkilərdə də YAP-ın namizədlərini dəstəkləyəcəklərinə inam ifadə olunub.

Tədbirdə çıxış edən namizədin vəkili akademik Vaqif Abbasov və YAP Abşeron rayon təşkilatı Qadınlar Şurasının sədri Təyyibə Hüseynova Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildiriblər. Natiqlər əldə edilən uğurların davamlı olması üçün seçiciləri "Daha güclü Azərbaycan naminə" YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Tədbirdə çıxış edən seçicilər fevralın 9-da YAP-ın deputatlığa namizədi Oqtay Əsədova səs verəcəklərini bildiriblər.

# YAP Gəncə şəhər təşkilatında müşahidəçilərlə görüş keçirilib





Azərbaycan Milli Məclisinə keçiriləcək seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatında seçki məntəqələrində səsvermə prosesini izləyəcək müşahidəçilərlə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP-ın Mərkəzi Seçki Qərargahının Gəncə şəhər şöbəsinin sədri, YAP Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev bu gün ölkəmizin çox mühüm siyasi kampaniya - parlament seçkiləri ərəfəsində olduğunu və məsul kampaniyanın sona çatmasına sayılı günlər qaldığını bildirib. Naqif Həmzəyev qeyd edib ki, ölkədə olduğu kimi, Gəncə şəhərində də təbliğat kampaniyası seçicilərin mütəşəkkilliyi, fəallığı şəraitində keçir. Bu da ölkədəki siyasi mühitin, eyni zamanda, seçkilərə olan marağın göstəricisidir.

YAP Gəncə şəhər təşkilatı Qadınlar Şurasının sədri, Yeni Azərbaycan Partiyasının 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən deputatlığa namizədi Pərvin Kərimzadə, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, 39 saylı Kəpəz birinci (Gəncə) seçki dairəsindən deputatlığa namizəd Müşfiq Cəfərov və 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsindən deputatlığa namizəd Musa Quliyev çıxış edərək, səsvermə prosesində demokratiyanın tələblərinə uyğun obyektivliyin gözlənilməsinin müşahidəçilərin riayət etməli olduqları başlıca vəzifə olduğunu diqqətə çatdırıblar.

Tədbirdə həmçinin partiyanı təmsil edən müşahidəçilərə Azərbaycan Respublikasının Seçki Məcəlləsində olan əsas anlayışlar, müşahidə aparmağın prinsipləri, müşahidəçilərin hüquqları, riayət etməli olduqları şərtlər barədə məlumat verilib.

Diskussiya şəraitində keçən tədbirdə müşahidəçiləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Səbail rayonunda qadın seçicilərlə görüş keçirilib




29 saylı Səbail seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Aytən Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində qadın seçicilərlə görüşüb.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Şəmsəddin Hacıyev hazırda Səbail rayonunda 21 mindən çox qadın seçicinin olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycan qadınları bu gün cəmiyyətin ictimai-siyasi həyatının bütün sahələrində çox fəaldırlar.

Natiq bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın humanizm, xeyriyyəçilik kimi bəşəri prinsiplərə söykənən və ən həssas, xüsusi diqqət tələb edən sahələrdəki çoxşaxəli fəaliyyəti bütün dünyada Azərbaycan qadınının müsbət obrazını formalaşdırıb.

Qeyd olunub ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qadınlarımıza yüksək qiymət verib. Bu gün bu gözəl ənənə Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilir. Sonra YAP-ın deputatlığa namizədi Aytən Hüseynova haqqında görüş iştirakçılarına məlumat verilib.

A.Hüseynova isə çıxışında Səbail qadınlarını seçkilərdə ailə üzvləri ilə birlikdə fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıb. Sonda qadın seçiciləri maraqlandıran suallar cavablandırılıb və onların təklifləri dinlənilib.

**MÜŞFİQƏ**

# Ziyafət Əsgərovun Astara seçiciləri ilə görüşləri uğurla davam edir




76 saylı Lənkəran-Astara seçki dairəsindən deputatlığa namizəd Ziyafət Əsgərov parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Astara rayonu Təngərüd kəndində seçicilərlə görüş keçirib.



Seçicilər qarşısında çıxış edən Yeni Azərbaycan Partiyasının (YAP) namizədi Ziyafət Əsgərov bildirib ki, Azərbaycanın bugünkü dinamik sosial-iqtisadi inkişafı ölkəmizin yaxın gələcəkdə bütün sahələrdə dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcəyini deməyə əsas verir. Onun sözlərinə görə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcək illərdə də davam edəcək: **"Bu gün Azərbaycanda mühüm islahatlar aparılır. Bu islahatlar bütün vətəndaşların sosial rifahının yüksəldilməsinə xidmət göstərir. Bu işdə Prezidentimizin ən yaxın dəstəkçisi məhz Yeni Azərbaycan Partiyasıdır. Mən əminəm ki, seçicilərimiz düzgün seçim edəcək və YAP-ın namizədlərinə səs verəcəklər".**

Görüşdə çıxış edən seçicilər seçki günü YAP-ın namizədinə səs verəcəklərini qeyd ediblər.

# Deputatlığa namizəd Məlahət İbrahimqızının seçicilərlə görüşləri uğurla davam edir




Yeni Azərbaycan Partiyasının (YAP) 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə deputatlığa namizədi Məlahət İbrahimqızı parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü keçirib.

Görüşdə çıxış edən Məlahət İbrahimqızı Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dərinməzmunlu islahatlar haqqında ətraflı məlumat verib. O qeyd edib ki, bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir. M.İbrahimqızı söyləyib ki, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində də sosial məsələlərin həlli xüsusi yer tutur.

Deputatlığa namizəd həmçinin YAP-ın seçki proqramı haqqında seçicilərə ətraflı məlumat verib.

Çıxışında Bakı şəhərində abadlıq və quruculuq işlərinin böyük vüsət aldığını deyən M.İbrahimqızı bu prosesin Nəsimi rayonunda da uğurla davam etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakıda abadlıq işlərinin görülməsi, abad həyətlərin yaradılması insanlar tərəfindən böyük rəğbətlə qarşılanır.

M.İbrahimqızı bu uğurların davamlı olması üçün, daha güclü Azərbaycan naminə seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçici və Qarabağ Əlilləri Cəmiyyətinin sədri Azər Quliyev, "20 Yanvar" Cəmiyyətinin Nəsimi rayon şöbəsinin sədri Tahir Fətullayev, Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Aydın Heydərov və seçici Xədicə Məmmədova Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini, qarşıdan gələn seçkilərdə də YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

Görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib. Seçicilər bir sıra sosial, kommunal məsələlərin həlli ilə bağlı fikirlərini bildiriblər. Deputatlığa namizəd Məlahət İbrahimqızı qaldırılan məsələlərin təhlil olunaraq həll edilməsi istiqamətində zəruri addımların atılacağını diqqətə çatdırıb.

# Gəncəlilərin seçimi Pərvin Kərimzadə olacaq




37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Pərvin Kərimzadənin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü şəhərin Yeni Gəncə qəsəbəsində və Totanlı küçəsində olub.



Seçicilərlə keçirdiyi hər bir görüşdə Pərvin Kərimzadə Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatındakı uğurlarından danışıb, partiyanın seçki platformasında vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasının əsas götürüldüyünü diqqətə çatdırıb. Pərvin Kərimzadə seçiciləri "Daha güclü Azərbaycan naminə!" şüarı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Seçicilər Pərvin Kərimzadənin millət vəkili kimi fəaliyyətini yüksək qiymətləndirib, ölkədə həyata keçirilən islahatların fəal təbliğatçısı olduğunu diqqətə çatdırıb, fevralın 9-da məmnuniyyətlə seçki məntəqələrinə gedəcəklərini və Yeni Azərbaycan Partiyasının namizədi Pərvin Kərimzadəyə səs verəcəklərini dilə gətiriblər.

Seçici fəallığı ilə keçən görüşlərdə sakinlərin sualları cavablandırılıb, təklif və problemlərinin qeydiyyatı aparılıb.